AZƏRBAYCAN RESPUBLİKASI
TƏHSİL NAZİRLİYİ

AZƏRBAYCAN RESPUBLİKASININ
TƏHSİL İNSTİTUTU

Kapital Bank
BİRİNCİ BANK

RESPUBLİKA FƏNN OLİMPİADALARI

2020-2021

Respublika mərhələsinin yarımfinal turu

# Coğrafiya
## yuxarı yaş qrupu (10-11-ci siniflər)

Ad_____________________ Soyad _____________________

*İmtahan müddəti 180 dəqiqədir.
*1-10-cu suallar 3 bal, 11-20-ci suallar 4 bal, 21-30-cu suallar 5 bal ilə qiymətləndirilir.
*Hər səhv cavablandırılmış sual öz dəyərinin ¼-i qədər bal aparır.
*Nəzarətçilərə yalnız cavab kartları təqdim olunur.
*Olimpiadanın nəticələrini www.olimpiada.edu.az saytından və ya təhsil aldığınız ümumtəhsil müəssisəsindən öyrənə bilərsiniz.

UĞURLAR!

10.03.2021

1. Xəritə sxemdə rəqəmlərlə göstərilən hansı iqtisadi-coğrafi rayonlarda tərkibində iki şəhər olan inzibati rayon və ya rayonlar var?




A) 2,3,4,8,9 B) 2,4,5,7 C) 1,2,5,6,7,8 D) 2,4,5,10 E) 1,2,3,5,6,9

2 . Təbii ehtiyatlardan səmərəli istifadə və ətraf mühitin qorunması üzrə beynəlxalq təşkilat adlanır:

A) UNİCEF

B) NAFTA

C) YUNEP

D) UNESCO

E) OPEC

3. Meşə sənayesinin kimyəvi emal məhsullarını müəyyən edin.

| | | | |
|---|---|---|---|
| 1. Kağız | 2. Karton | 3. Faner | 4. Spirt |
| 5. Ağac tədarükü | 6. Taxta-şalban | 7. Skipidar | 8. Mebel |
| 9. Boya | 10. Kanifol | 11.Şpal | |

A) 1, 2, 3, 4, 9, 10

B) 1, 2, 4, 7, 9, 10

C) 1, 2, 5, 6, 8, 11

D) 3, 4, 6, 8, 10

E) 3, 5, 7, 8, 10, 11

4. Şəkildə quruluşu göstərilən istehsal prosesinə əsasən, hansı tip elektrik stansiyası olduğunu müəyyən edin.




A) İES

B) SES

C) QES

D) GeoES

E) HES

5. Müəssisənin sutkalıq enerji sərfiyyatı 22000000 kkal-dır. Enerji sərfiyyatında istifadə olunacaq yanacaq növlərini çəkisinin azalmasına görə sıralayın.

1. Daş kömür
2. Quru odun
3. Torf
4. Yanar şist
5. Təbii qaz

A) 4, 2, 1, 3, 5
B) 4, 2, 3, 1, 5
C) 5, 1, 3, 2, 4
D) 3, 2, 4, 1, 5
E) 5, 1, 4, 3, 2

6. Doğru sıraları seçin.

| SN | Ölkə | Texnopolis |
|---|---|---|
| 1 | Böyük Britaniya | Z-Park |
| 2 | Böyük Britaniya | Sofiya-Antipolis |
| 3 | ABŞ | Kembric |
| 4 | Fransa | Perdyu |
| 5 | Kanada | Kumminqs |
| 6 | Finlandiya | Kansai |
| 7 | Böyük Britaniya | Texnium |
| 8 | ABŞ | Silikon vadisi |
| 9 | Çin | NET-Park |
| 10 | Yaponiya | Otaniemi |

A) 3,4,7,8
B) 4,8,9,10
C) 1,2,5,6,8,10
D) 7,8
E) 3,4

7. Bakı, Gəncə, Sumqayıt, Mingəçevir, Şirvan, Salyan və Neftçala şəhərlərinin ortaq ağır sənaye sahələrini seçin.

1. Elektroenergetika
2. Neft-qaz
3. Kimya
4. Metallurgiya
5. Maşınqayırma
6. Tikinti materialları

A) 1,3,5
B) 2,4,6
C) 1,3,6
D) 1,2,4
E) 3,5,6

8. Cədvələ əsasən Zaqatala inzibati rayonuna xas olan texniki bitkiçilik sahələrinin hansı sütunda qeyd olunduğunu təyin edin.

| **Bitki növü** | **1** | **2** | **3** | **4** | **5** |
|---|---|---|---|---|---|
| Pambıq | + | + | + | | |
| Tütün | | | + | + | + |
| Çay | | + | | + | + |
| Üzüm | + | + | + | | |
| Şəkər çuğunduru | + | + | + | | |
| Günəbaxan | | + | | + | + |
| Zəfəran | + | | + | + | |
| Xınagülü | | + | | + | |
| Qızılgül | | + | + | | + |
| Biyan | + | + | | + | |

A) 1 B) 2 C) 3 D) 4 E) 5

9. Dünya üzrə qaçqınların əsas hissəsini təşkil edən ölkələri seçin.

1. Suriya 2. Oman 3. Somali

4. Konqo DR 5. Əfqanıstan 6. Mali

A) 1,3,5 B) 2,4,6 C) 1,3,6 D) 2,3,5 E) 1,2,4

10. Şəkildə təsvir edilən relyef formasına nəzər yetirərək doğru fikirləri müəyyən edin.



1. Ay erasında formalaşmışdır.
2. Karst prosesinin nəticəsində formalaşmışdır
3. Relyefin yaşını öyrənmək üçün əlverişlidir
4. Ekzarasiya fəaliyyətinin nəticəsində formalaşmışdır
5. Yalnız cavan dağlarda formalaşır
6. Rekreasiya imkanları mövcuddur
7. Respublikamızda bu tip relyef formasına rast gəlinir

A) 1,4,6 B) 3,6,7 C) 2,5,7 D) 1,2,3,6 E) 4,5,6,7

11. Şimali Amerika materikində yerləşən gölləri şərqdən qərbə doğru müvafiq ardıcıllıqla sıralayın.

| | | | |
|---|---|---|---|
| 1. Miçiqan | 2. Eri | 3. Huron | 4. Ontario |
| 5. Yuxarı | 6. Vinnpeq | 7. Böyük Ayı | 8. Atabaska |

A) 8, 6, 1, 2, 5, 4, 3, 7

B) 4, 3, 5, 1, 2, 7, 6, 8

C) 4, 2, 3, 1, 5, 6, 8, 7

D) 4, 2, 3, 5, 1, 7, 8, 6

E) 2, 4, 3, 1, 5, 8, 6, 7

12. Eyler-Venn diaqramındakı uyğunluğu təyin edin.




| | | | |
|---|---|---|---|
| 1. İraq | 2. Tunis | 3. İordaniya | 4. Əfqanıstan |
| 5. BƏƏ | 6. Bruney | 7. Malayziya | 8. Efiopiya |

A) I-8, II-6, III-3, IV-5

B) I-5, II-2, III-6, IV-3

C) I-7, II-1, III-8, IV-2

D) I-5, II-4, III-7, IV-3

E) I-1, II-2, III-4, IV-6

13. Kanberra şəhəri üçün (35$^o$c.e., 149$^o$ş.u.) doğru bəndi seçin.

A) X saat qurşağının orta meridianı ilə arasında olan ən qısa məsafə 71,7 km-dir.

B) 1:15000000 miqyaslı bərabərsahəli xəritədə paytaxtı olduğu ölkənin sahəsi 200 sm$^2$-dir.

C) Mülayim iqlim qurşağının dəniz vilayətinin enliyarpaq meşələr zonasında yerləşir.

D) Yerləşdiyi qitənin ən böyük şəhəri və ən mühüm sənaye mərkəzidir.

E) Kergelen adasında günəş şüalarının maksimum düşmə bucağı müşahidə edildiyi gün, bu şəhərdə günorta vaxtı günəş şualarının düşmə bucağı 78,5$^o$ təşkil edir.

14. Xəritə-sxemdə təsvir edilmiş coğrafi obyektin, Torres boğazı vasitəsi ilə materikdən ayrılan coğrafi obyekt arasındakı oxşar cəhət və ya cəhətləri müəyyən edin.



I. Eyni işıqlanma qurşağında yerləşirlər

II. Sahillərini bir neçə dəniz suları yuyur

III. Aid olduğu ölkələr inzibati ərazi quruluşuna görə unitardır

IV. Ərazilərində cavan dağlar mövcuddur

A) I,II,III  B) I və II  C) I,II, III,IV  D) II,III,IV  E) Yalnız III

15. Diaqramda verilən ixrac göstəricələrini nəzərə alaraq ixrac olunan emal məhsulunu müəyyən edin.




A) Elektrotexnika

B) Avtomobil

C) Metallurgiya

D) Meşə məhsulları

E) Energetka maşınqayırması

16. Diaqrama əsasən uyğunluğu müəyyən edin.




1. Rəsmi dövlət dili Hind-Avropa dil ailəsinə aiddir.

2. Məhəlli sularının mövcud olduğu dəniz üç qitənin sahillərini yuyur

3. Ərazisindən günorta vaxtı günəş şüalarının minimum düşmə bucağı $26,5^0$ olan paralel keçir.

4. Monarxiya idarəetmə formasına malikdir

5. Ərazisi iki işıqlanma qurşağında yerləşir

6. Sahillərini iki okean suları yuyur

A) I- 4,6; II- 1; III-3,5; IV -2

B) I- 4,5; II- 1; III-3 ; IV -2,6

C) I- 4; II- 1; III- 3; IV -2

D) I- 5; II- 1; III-4; IV -2,3

E) I- 1; II- 4; III-5; IV -3

17. Bardarbunqa və Pinatubo vulkanlarının yerləşdikləri ölkələrə aid olan oxşar xüsusiyyətləri müəyyən edin.

1. Unitar inzibati- ərazi quruluşuna malikdir

2. Əhalinin ümumi sayı 100 milyon nəfərdən azdır

3. Adada və ya arxipelaqda yerləşir

4. Əraziləri bir iqlim qurşağında yerləşir

5. Sahillərini iki okean suları yuyur

6. Hind okeanına çıxışı mövcud deyil

A) 2,3,6 B) 2,4,5 C) 1,3,5 D) 2,3,4 E) 1,3,6

18. Diaqrama  əsasən uyğunluğu müəyyən edin.




1. Cisimlərin kölgəsi ilboyu bütün istiqamətlərə düşür

2. Ərazisindən axan çaylar daha çox dənizə tökülür

3. Roman dil qrupuna mənsub olan xalqlar yaşayır

4. Geotermik pillə kiçikdir

5. Yerləşdiyi ərazidə monarxiya idarəetmə formasına malik olan ölkə mövcud deyil

A) I- 2; II- 1; III- 5 ; IV- 4 ; V- 3

B) I- 3; II- 1; III- 2 ; IV- 4 ; V- 5

C) I- 4; II- 2; III- 3 ; IV- 5 ; V- 1

D) I- 5; II- 3; III- 2 ; IV- 3 ; V- 4

E) I- 2; II- 1; III- 3 ; IV- 5 ; V- 4

19. Düzgün ardıcıllığın verildiyi sıranı müəyyən edin.

1. Tikanlıçay → Türyançay → Kür → Xəzər

2. Kürmükçay → Talaçay → Qanıx → Kür

3. Çigilçay → Həkəri → Araz → Kür

4. Qarqarçay → Tərtərçay → Kür → Xəzər

5. Kişçay → Əyriçay → Qanıx → Kür

6. Həsənsuçay → Ağstafaçay → Kür → Xəzər

7. Oxçuçay → Bərgüşadçay → Həkəriçay → Araz

8. Əlicançay → Araz → Kür → Xəzər

A) 2,4,6,7,8 B) 1,2,3,5 C) 1,5 D) 3,4,5 E) 1,3,5

20. Cədvələ əsasən şərti işarələrlə təsvir edilmiş faydalı qazıntılardan, qeyri-filiz olanı hansı bənddə düzgün verilmişdir?

| | |
|---|---|
| A) |  |
| B) |  |
| C) |  |
| D) |  |
| E) |  |

21. ÜDM həcminə əsasən tərtib olunmuş diaqramda rəqəmlə göstərilmiş ölkələr üçün müvafiq bəndləri seçin.




a. Büdcə gəlirlərinin 75%, ixracın 90%-i neft məhsullarının payına düşür.

b. Geotermal energetikanın inkişafı üçün əlverişli İCM-ə malikdir.

c. Dövlət dili Hind-Avropa ailəsinə daxil edilir.

d. Respublika idarəetmə formasına sahibdir.

e. Dünyada sənaye robotlarının istehsalı üzrə 2-ci, ixracı üzrə 1-ci yeri tutur.

A) 1 b ; 2 c,e; 3 a,d

B) 1 a,e; 2 c,d; 3 b

C) 1 e; 2 a,d; 3 b,c

D) 1 b,e; 2 c,a; 3 d

E) 1 b,e; 2 c,d; 3 a

22. Doğru ***olmayan*** bəndi seçin.

1. Günorta vaxtı kölgəsinin uzunluğu öz uzunluğuna bərabər olan şaquli basdırılmış dirəyin yerləşdiyi coğrafi enliklə, günəşin zenitdə olduğu coğrafi enlik arasında dərəcə fərqi 40°-dən böyükdür

2. Subtropik iqlim qurşağında savanna və seyrək meşələr təbii zonasına rast gəlinmir.

3. Yer kürəsinin orbit müstəvisinə meyillilik bucağının artması ilə əlaqədar olaraq 50°-lik paralel üzərində maksimum və minimum düşmə bucağı arasındakı fərq indikindən daha kiçik olar.

4. İnari gölü Mülayim işıqlanma qurşağında yerləşir.

5. İsti okean cərəyanlarının keçdikləri ərazilərdə okean səthinin duzluluğu artar və həmin ərazidə enən hava axınları formalaşar.

6. Nyufaundlend adası BMT-nin təhlükəsizlik şurasının daimi üzvi olan ölkəyə məxsusdur

7. Reqressiya nəticəsində səth örtüyünün əks etdirmə qabiliyyəti artır.

8. Kalahari çökəkliyindəki eyniadlı səhranın yerləşdiyi ərazinin mütləq hündürlüyü Qaraqum səhrasının yerləşdiyi ərazinin mütləq hündürlüyündən daha çoxdur.

A) 2, 7, 8 B) 1, 3, 7, 8 C) 1, 3, 7

D) 2, 4, 5, 6 E) 4, 5, 6, 8

23. Fikirlərdən neçəsi doğrudur?

– Ölkə əhalisinin orta illik təbii artımı 1,3 %-ə bərabərdirsə, bu ölkə təbii artımın II tipinə aiddir

– İşğaldan yeni azad olunmuş inzibati rayonların ərazisində Paleozoy yaşlı süxurlara rast gəlinir

– Müəyyən bir əlavə və ya yeni məhsulun istehsalına başladıqdan sonra əldə edilən üstünlük və ya əlavə fayda alternativ dəyər adlanır

– Yer kürəsinin xəyali oxu ətrafında fırlanma sürətinin azalması ilə Troposfer qatının qalınlığının azalması arasındakı əlaqə düz mütənasibdir.

– Tropik iqlim qurşağında savanna və seyrək meşələr, həmçinin dəyişkən rütubətli meşələr təbii zonası mövcuddur

A) Biri B) İkisi C) Üçü D) Dördü E) Beşi

24. Düzgün olan bəndi seçin.

1. Azərbaycan Respublikasının sahəsi 1:4000000 miqyaslı xəritədə 246,5 paletka daması ilə təsvir edilər.

2. Tropik işıqlanma qurşağında yerləşən mərcan mənşəli adaların ümumi sahəsi, bu işıqlanma qurşağında yerləşən materik mənşəli adaların ümumi sahəsindən daha böyükdür.

3. Okean sularının duzluluğu və əhalinin hər min nəfərinə olan təbii artımı promille ilə (‰) hesablanır

4. Əsas iqlim qurşaqlarında yalnız buluddan çökən yağıntı növləri mövcuddur

5. Günəş Ekvator xətti üzərində zenitdə olarkən, günorta vaxtı eyni meridian çevrəsi üzərində yerləşən $30^0$ şimal və cənub enliklərindəki relyef vahidinin səthinə günəş şüaları eyni bucaq altında düşməyə bilər.

6. Düşməsi daha kiçik olan çayın meyilliyi, düşməsi daha böyük olan çayın meyilliyindən böyük ola bilər.

A) 1,2,4 B) 3,5,6 C) 2,3,5 D) 1,5,6 E) 2,3,4,5

25. *Heç bir iqlim vilayətinə bölünməyən bu iqlim qurşağında yağıntıların çox hissəsi ilin isti dövründə düşür, havanın orta illik temperaturu yer kürəsinin orta illik temperaturundan daha yüksək, buxarlanma qabiliyyəti buxarlanmadan daha böyükdür.*

Yuxarıda xüsusiyyətləri verilmiş iqlim qurşağının yayıldığı ərazilər ilə, Alyaska yarımadasında müşahidə olunan iqlim tipinin yayıldığı ərazilərin ümumi cəhət və ya cəhətlərini müəyyən edin.

I. Bütün yarımkürələrdə rast gəlinmir

II. Havadan çökən yağıntı növləri üstünlük təşkil edir

III. Hind okeanı sahillərində formalaşır

IV. İntensiv suvarma həyata keçrilir

A) Yalnız III B) I,II,III C) Yalnız I D) II və IV E) I,II,III,IV

26. Hündürlüklərinin artmasına görə relyef vahidlərini sıralayın.

1. Efiopiya yaylası
2. Krım dağları
3. Qviana yaylası
4. Pireney dağları
5. Darfur platosu
6. Əjdaha (Drakon) dağları
7. Skandinaviya dağları

A) 5,7,4,2,3,1,6 B) 7,2,3,5,4,1,6 C) 2,7,3,6,4,5,1

D) 7,2,3,5,4,6,1 E) 2,7,3,5,4,6,1

27. Fikirlərdən neçəsi doğru ***deyil***?

– Yeni Zelandiyanın əhalisinin əsas hissəsi qərb sivilizasiyasına mənsubdur

– Tailand sahillərini iki okeanın suları yuyur

– Esvatini (Svazilend) Tropik işıqlanma qurşağında yerləşir

– İraq və Pakistan İslam dininə sitayiş edən ərəb ölkələridir

– Niamey şəhəri Bakı şəhəri ilə eyni yarımkürələrdə yerləşir.

A) Biri B) İkisi C) Üçü D) Dördü E) Beşi

28. *Bu dəniz Mezozoy qırşıqlığının mövcud olmadığı materikin sahillərini yuyur, eyni zamanda Maqdalena çayının töküldüyü okeanda yerləşir və Tuamotu adalarının yerləşdiyi okeanla yarımada vasitəsi ilə ayrılır.*

Yuxarıda xüsusiyyətləri verilmiş dəniz ilə Neva çayının mənsəbinin yerləşdiyi dənizin ümumi cəhət və ya cəhətlərini yazın.

I. Səth suları donur

II. Gecə və gündüzün adi növbələşməsi pozulur

III. 22 dekabr tarixində gecə və gündüzün uzunluqlarının bərabər olduğu paraleldən eyni istiqamətdə yerləşirlər

IV. Rəsmi dövlət dili Ural-Yukagir dil ailəsinə məxsus olan ölkənin sahillərini yuyur.

A) I,II,III,IV B) II və III C) I və IV D) Yalnız I E) I və II

29. 45° şimal enliyində yerləşən limandan səhər saat 06:00-da çıxan gəmi şimal-qərb istiqamətində 3 saat hərəkət etdikdən sonra 5° sola meyl edir. Yeni istiqamətdə 3 saat getdikdən sonra 50° sağa döndü. Hal-hazırda gəminin kölgəsi göyərtənin hansı tərəfinə düşür?

A) soluna B) önünə C) arxasına

D) sağına E) kölgə olmayacaq

30. En kəsikləri bərabər olan çayların hidroqraflarına əsasən, verilmiş fikirlərdən neçəsi doğrudur?




- II və III çaylar Şimal yarımkürəsində yerləşə bilər

- II Çay şimal III çay isə cənub yarımkürəsində yerləşə bilər

- Əgər III çay Cənub yarımkürəsində yerləşərsə daxili dənizə tökülə bilməz

- I çayın sürəti II çayın sürətindən kiçik ola bilər

- Bütün çayların qidalanmasında buzlaq suları iştirak edə bilər

A) Biri B) İkisi C) Üçü D) Dördü E) Beşi

Doğru cavablar

1B 2C 3B 4A 5B 6D 7E 8E 9A 10B

11C 12B 13E 14D 15D 16C 17E 18E 19C 20C

21E 22D 23C 24B 25A 26E 27B 28D 29B 30E